# İQTİSADİYYAT

## BAKI-TBİLİSİ-CEYHAN NEFT KƏMƏRİ – NEFT STRATEGİYASININ REALLAŞMASININ VACİB ELEMENTİDİR

S.Ə.ŞIXƏLİZADƏ
*Bakı Dövlət Universiteti*

Respublikamızda yeni neft qaz strategiyasının inkişafı 1994-cü ilin sentyabr ayının 20-dən başlamışdır. Belə ki, 1994-cü ilin sentyabrın 20-də «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının və «Günəşli» yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında» Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə dünyanın 8 ölkəsindən olan 11 iri neft şirkəti arasında sonralar tarixə «Əsrin müqaviləsi» kimi düşən böyük saziş imzalanmışdır.

Ümummilli liderimiz Heydər Əliyevin məhz yeni neft-qaz strategiyasının həyata keçirilməsi nəticəsində Azərbaycan Cənubi Qafqazda və Xəzər regionunda mühüm geosiyasi rol oynamağa başlamış, nəinki neft və qaz ehtiyatlarına görə, eyni zamanda Qara Dəniz və Xəzər dənizi hövzələrindəki mövqelərinə görə regionun aparıcı dövlətinə çevrilmişdir.

Xarici investisiyaların artım dinamikası (mln. ABŞ dolları)




İmzalanmış sazişin mühüm iqtisadi faydasından başqa, başlıca əhəmiyyəti ondan ibarətdir ki, dünyanın aparıcı dövlət və şirkətləri Azərbaycan Respublikasının müstəqil dövlət və etibarlı müttəfiq

olduğuna tam əminliklə inandılar. Beləliklə, «Əsrin müqaviləsi» bütün dünya ölkələrinin Azərbaycan Respublikasına inamını artırdı və sonradan dünyanın ən böyük neft şirkətlərinin ölkəmizə gəlişinə şərait yaratdı.

«Əsrin müqaviləsi», sözün əsl mənasında, indiyə qədər imzalanmış 26 neft müqaviləsinə yol açdı və beynəlxalq sərmayələrin Azərbaycana gəlməsinə təkan verdi. Neft müqavilələri çərçivəsində görülən müştərək işlər ölkəmizə mütərəqqi texnologiyaların və qabaqcıl idarəetmə üsullarının gətirilməsi, neft sənayesinin infrastrukturlarının yenidən qurulması, nəqliyyat və xidmət sahələrinin inkişafı, yüksək peşəkarlığa malik kadrların hazırlanması və minlərlə yeni iş yerlərinin açılması üçün geniş imkanlar yaratmışdır. Hazırda Azərbaycan regionda həyata keçirilən bütün qlobal iqtisadi layihələrin ən fəal iştirakçılarından biridir. İqtisadiyyata yatırılmış xarici sərmayələrin adambaşına düşən həcminə görə Azərbaycan MDB və Şərqi Avropa ölkələri arasında qabaqcıl yerlərdən birini tutur. Belə ki, son 11 ildə ölkə iqtisadiyyatına bütün maliyyə mənbələri hesabına 17,9 milyard ABŞ dollarından çox sərmayə yönəldilmişdir. Aşağıdakı diaqramdan göründüyü kimi 1995-ci ildə respublika iqtisadiyyatına 375,1 mln. ABŞ dolları məbləğində xarici investisiya qoyulmuşdursa, bu rəqəm 2005-ci ildə təqribən 12 dəfə artaraq 4444,3 mln. ABŞ dollarına çatmışdır. 1995-ci ildə qoyulmuş 375,1 mln. ABŞ dollarının 59%-i maliyyə krediti, 37,2%-i neft sektorunun payına düşmüş, 3,8%-i isə müştərək müəssisələr tərəfindən həyata keçirilmişdir. 2005-ci ildə 4444,3 mln. dollar həcmindəki xarici sərmayənin 6,3%-i maliyyə kreditinin, 91,7%-i neft sektorunun və 2%-i isə müştərək müəssisələrin payına düşür. Bu sərmayələrin böyük bir hissəsi də xarici neft şirkətləri tərəfindən qoyulmuşdur. Məlum olduğu kimi, bu şirkətlər sərmayə qoymağa qadir olduqları qədər də onları qorumağa qadirdilər, yəni bundan sonra Azərbaycana qarşı hər hansı təhlükə, həm də bu şirkətlərin sərmayələrinə qarşı olan təhlükədir. Odur ki, transmilli neft şirkətlərinin sərmayələrinin obyekti kimi Azərbaycan da qorunur və təhlükəsizliyi təmin olunur.

Azərbaycan Dövlət Neft Şirkəti keçən 10 il ərzində dünyanın aparıcı neft şirkətləri ilə birlikdə neft və qazın hasilatı, onların dünya bazarlarına çıxarılması, Azərbaycanın neft-qaz yataqlarının işlənilməsi, istismarı üzrə birgə proqrama uyğun olaraq böyük həcmdə işlər görmüşdür. Bu müddət ərzində respublikamızın ictimai-siyasi və iqtisadi həyatında xüsusi əhəmiyyət kəsb edən yeni neft-qaz strategiyası uğurla həyata keçirilmiş və bu zaman kəsiyində Azərbaycan Respublikasında ümumi neft hasilatının vəziyyəti kökündən dəyişməyə başlamışdır.

Bu illər ərzində Azərbaycanda ümumi neft hasilatı artmaqdadır. Belə ki, neft hasilatının səviyyəsi 1995-ci ildən 2005-ci ilə qədər olan dövrdə 20 mln. tonadək qalxmışdır.

«Azəri», «Çıraq» və «Günəşli» yataqlarının ilkin neft layihəsi «Mərhələ-1» və «Mərhələ-2» üzrə mühüm işlər görülmüşdür. İlkin neft və qazın sahilə nəqli üçün sualtı boru kəmərləri çəkilmişdir. Səngəçalda müasir terminal kompleksi inşa edilmiş, «Mərhələ-3» üzrə hazırlıq işlərinə başlanılmışdır. Azərbaycanın «Əsrin müqaviləsi» üzrə əsası qoyulan neft sənayesinin inkişafı yeni neft ixrac kəmərlərinin inşası üçün şərait yaratmışdır.

Hələ 1994-1995-ci illrdə Azərbaycanın ilk neft müqaviləsi

imzalananda analitiklərin qarşısına mühüm bir məsələni həll etmək tapşırığı qoyulmuşdur. Bu böyük Azərbaycan neftinin nəqli marşrutunu müəyyənləşdirmək idi. İlk olaraq İran variantı gündəlikdən çıxarıldı. Bakı-Neka kəməri ideyası müqavilələrdə Amerika kapitalının mövcudluğuna görə ortadan götürüldü. Beləliklə, neft konsorsiumunun qarşısında yeganə istiqamət Qərb çıxış xətti idi. Lakin bu xətt üç ölkə ərazisindən – Ermənistan, Gürcüstan və Rusiyadan keçə bilərdi. Azərbaycanın qəti mövqeyi nəticəsində neftin Ermənistan vasitəsilə ötürülmüsi (Fransada erməni lobbisinin dəstəyi ilə ortaya atıldığı üçün «fransız variantı» adlandırıldı) variantı dərhal sıradan çıxarıldı. Qalan iki variant isə təbii şəkildə baş verdi.

«Əsrin müqaviləsi» sahəsində çıxarılan ilkin nefti nəql etmək üçün iki kiçik ölçülü kəmər tikildi. Bakı-Subsa və Bakı-Novorosiysk xətlərinin ilk üç ildə iş qabiliyyəti sonuncunun sabit və tam təhlükəsiz daşınmalara cavab vermədiyini göstərdi. Baxmayaraq ki, layihə Rusiya hökuməti tərəfindən aktiv şəkildə müdafiə olunurdu. Daşınmalarda tez-tez baş verən dayanmalar Bakı-Novorossiysk kəmərini əsas ixrac kəmərinə iddialılar sırasından tədricən çıxarırdı. Düzdür, sonradan Rusiya kəmərin təhlükəsiz fəaliyyətini təmin etdi, lakin Qərb istiqamətində ixracın iqtisadi aspektləri məsələyə nöqtə qoydu. Nəticədə Bakı-Tbilisi-Ceyhan kəmərinə üstünlük verildi.

Bakı-Tbilisi-Ceyhan kəmərinin Bakı-Novorossiysk ixrac xəttinə nisbətən üstünlüklərini aşağıdakı kimi qruplaşdırmaq olar:

- neft hasilatı ilə məşğul olmayan tranzit ölkələrdən keçid;
- ekoloji cəhətdən həssas olan Qara dəniz və Bosfor boğazından yan keçilməsi;
- İran və Rusiyada baş verən proseslərdən asılılığın aradan götürülməsi;
- Novorossiyskdən neftin ixracı üçün təklif olunan tarifə (4,2 dollar) nisbətən Bakı-Ceyhanda tarifin (2,58 dollar) aşağı olması.

Bakı-Ceyhanın başlıca çatışmazlığı kəmərin tikintisinin baha (2,95 mlrd dollar) başa gəlmişdir. Lakin Azərbaycan tərəfinin təsdiq etdiyinə görə, Bakı-Ceyhan boru xəttinə ayrılıqda bir layihə kimi baxmaq düz deyil. Bu, böyük Azərbaycan neftinin hasilatı və nəqli layihəsinin tərkib hissəsi olduğu üçün öz xərclərini tamamilə ödəyəcək.

«Əsrin müqaviləsi»nin imzalanmasının 8-ci ildönümü ərəfəsində, yəni 2002-ci il sentyabrın 18-də müstəqil Azərbaycan Respublikası üçün əlamətdar bir hadisə baş vermişdir. Ölkəmiz üçün həm iqtisadi, həm də siyasi cəhətdən mühüm əhəmiyyət kəsb edən bu əlamətdar hadisə yeni neft-qaz strategiyasının həyata keçirilməsində növbəti mərhələnin başlanğıcını qoydu. Belə ki, respublikamızın keçmiş Prezidenti Heydər Əliyevin, Türkiyə Cümhuriyyətinin Prezidenti cənab Əhməd Necdət Sezərin və Gürcüstan Respublikasının keçmiş Prezidenti cənab Eduard Şevardnadzenin iştirakı ilə «Bakı-Tbilisi-Ceyhan» (BTC) əsas ixrac boru kəmərinin «təməl daşı»nın qoyuluşu mərasimi keçirildi və bu nəhəng layihənin həyata keçirilməsinə start verildi.

BTC kəmərinin dəyəri 2,95 milyard dollar məbləğində qiymətləndirilir. BTC-nin tikintisi üçün lazım olan vəsaitin 30 faizini sponsor qrupundakı paya uyğun olaraq iştirak edən şirkətlər ayıracaq. Qalan 10 faiz isə Beynəlxalq Maliyyə İnistitutlarından kredit kimi

alınacaq. Layihənin maliyyələşdirilməsində beynəlxalq Maliyyə Korporasiyası və Avropa Yenidənqurma və İnкişaf Banкı və ABŞ-ın ixrac-idxal banкları, Almaniyanın «Hermeş» banкı, ORİC özəl xarici investisiyalar üzrə Ameriкa agentliyi də iştiraк edirdilər.

Azərbaycan ərazisindən bir-birindən 28 metr aralıda yerləşəcəк кəmərlərin 58 metrliк mühafizə zolağına düşən 6673 heкtar torpağın 4268 heкtarı xüsusi torpaq mülкiyyətçilərinə məxsusdur. Xüsusi torpaqlara görə cəmi 4149 mülкiyyətçi və istifadəçiyə 14 milyon 73 min dollar кompensasiya ödənib. Bununla bağlı xüsusi torpaq mülкiyyətçi və istifadəçiləri ilə 4207 icarə müqaviləsi imzalanıb, кompensasiyaların кöçürülməsi üçün Beynəlxalq Banкda müvafiq banк hesabları açılıb.

Azərbaycan ərazisində özəl torpaqların minimal icarə məbləği 145 min dollar, maкsimum icarə məbləği isə 185 min dollar olub.

Azərbaycanda кəmərlər boyunca 58 metrliк mühafizə zolağının 44 metrliк tiкinti dəhlizinə düşən torpaqlar üç il müddətinə tam icarəyə götürülüb. Bundan sonra 60 il müddətinə həmin ərazilərdə torpaqdan istifadəyə məhdudiyyətlər qoyulacaq.

Ümummilli liderimiz Heydər Əliyevin memarı olduğu yeni neft strategiyasının məntiqi nəticəsi olan Azərbaycan neftinin dünya bazarına çıxarılması üçün Baкı-Tbilisi-Ceyhan (BTC) Əsas İxrac Boru Kəmərinin (ƏİBK) tiкintisi ideyası reallığa çevrilmişdlir. Belə кi, arzunun təcəssüm olunmasının təntənəsi 2006-cı ilin 13 iyul tarixində Türкiyənin Ceyhan şəhərində baş verdi. Hərçənd кi, Azərbaycan neftinin boru кəməri vasitəsi ilə Ceyhan limanına çatdırılması taleyin qismətinə uyğun olaraq Azərbaycanın müstəqilliк gününə – 28 may tarixinə təsadüf edir. Doğrudur, «böyüк səккizliк» ölкələrinin sammitinin deməк olar кi, Ceyhan mərasimi ilə eyni vaxtda düşməsinə və bir çox dünya liderlərinin mərasimə qatılmasına baxmayaraq bayram lazımınca təntənəli surətdə qeyd edildi. Belə кi, кütləvi informasiya vasitələrinin qeyd etdiyi кimi, Ceyhanda mərasimin qeyd edilməsi üçün Türкiyə tərəfi 5 mln. avro vəsait xərcləmişdir.

BTC layihəsinin iştiraкçıları olan üç dövlətin prezidentləri, eləcə də dünyanın 30-dan artıq ölкəsindən çoxsaylı diplomatiк nümayəndələr bir səslə bu layihənin təкcə perspeкtivliyini yox, həm də dünya üçün mühüm strateji layihə olduğunu qeyd etdilər. BTC neft кəmərinin planlaşdırılması və yaradılması tarixi – beynəlxalq münasibətlərin elə yeni məntiqinin təşəккül tapması tarixidir кi, burada кimin nəyin hesabına udması məsələsinin qoyuluşu artıq işləmir. Çünкi əкsəriyyət bu layihədən bəhrələnib, heç кim uduzmayıbdır.

Azərbaycan Respubliкasının Prezidenti İlham Əliyev çıxışlarının birində demişdir: «Baкı-Tbilisi-Ceyhan neft кəməri geosiyasi xaraкter daşıyır və özünün mövcudluğu ilə dünya proseslərinə təsir göstərəcəкdir» bu fiкirlə razılaşmamaq qeyri-mümкündür.

Türкiyə Prezidenti Əhməd Necdət Sezərin fiкrincə, Şərq-Qərb enerji dəhlizini təşкil edən layihələr – regionda sülhün, təhlüкəsizliyin və iqtisadi inкişafın təmin edilməsi yolunda strateji addımlardır. Gürcüstan Prezidenti Mixail Saaкaşvili vurğulamışdır кi, Azərbaycanın ümummilli lideri Heydər Əliyevin qətiyyəti BTC layihəsinin mümкünlüyünü göstərdi. Qeyd etməк lazımdır кi, burada gələcəyə baxış da vacibdir, uzunmüddətli layihənin həyata кeçirilməsində inam zəruridir.

Dünyada artan enerji çatışmazlığı şəraitində Azərbaycanın

karbohidrogen ehtiyatlarına tələbatı da artır. Azərbaycan «Əsrin layihəsini» həyata keçirərkən, artıq özünün artan sosial öhdəliklərinin keyfiyyətcə yerinə yetirilməsinə, demokratik islahatların həyata keçirilməsinin təmin edilməsinə, regionda geosiyasi təhlükəsizliyin daha təsirli zəmanətçisi (qarantı) kimi çıxış etməsinə qadir olan səmərəli dünyəvi dövlətin təşəkkül tapması yollarında son dərəcə çoxlu işlər görmüşdür.

«Neftin modernləşməsi ilə mübadiləsi» siyasətini həyata keçirərək, Azərbaycan yalnız məhz neft ölkəsi kimi yox, həm də ictimai və iqtisadi həyatın bütün sferalarını əhatə edən dəyişikliklərin mövcud olduğu böyük bir regionun ən dinamik inkişaf edən ölkəsi kimi dünyanın diqqətini özünə cəlb etmişdir. Belə ki, 2006-cı ilin birinci yarım ili ərzində Azərbaycanda ümumi daxili məhsulun artım sürəti keçən ilin müvafiq dövrünə nisbətən 36% -dən çox olmuşdur ki, bu da nəinki regionda, hətta dünyada ən yüksək göstəricidir. Şübhəsiz ki, bu artım göstəricisində neft faktoru ön sırada gedir.

Qərb şirkətləri ilə bağlanan ilk neft müqavilələri sayəsində güclü qanunverici baza yaradılmışdır, investorlar öz investisiya qoyuluşlarının etibarına inanmışdılar. Bütövlükdə, MBS (Məhsulun bölgüsü haqqında Saziş) standartlarına uyğun olaraq 23 neft müqaviləsi bağlanmışdır ki, bu layihələrin dəyəri 65 mlrd. dollar civarındadır. Qeyd etmək lazımdır ki, bu müqavilələrin 15-i Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən sahələr üzrədir. «Əsrin müqaviləsi» dəniz sahələri üzrə bağlanmış yeganə sazişdir ki, kəşf olunmuş yataqlara aiddir. Digər sazişlər isə karbohidrogen yataqlarının aşkar edilməsi üçün axtarış-kəşfiyyat işlərinin aparılması lazım olan sahələr üzrə baglanmışdır. Aparılan axtarış-kəşfiyyat işləri xarici neft şirkətlərinin qoyduqları sərmayələrin hesabına həyata keçirilir. Bu sazişlərin həyata keçirilməsi nəticəsində yerinə yetiriləcək işlərə təxminən 60 mlrd. ABŞ dollarına yaxın ümumi sərmayə qoyuluşu nəzərdə tutulmuşdur. 2004-cü ilin neft və qaz sektoruna 10 mlrd. ABŞ dollarına yaxın sərmayə yönəldilmişdir ki, bunun da, 7 mlrd. ABŞ dollarından çoxu «Əsrin müqaviləsinin» payına düşür.

Məlumdur ki, neft kəşfiyyatı çox bahalı işdir, belə ki, bir buruğun qazılması bəzən 100 mln. ABŞ dollarına başa gələ bilər. Ölkəyə çoxlu miqdarda pul daxil olan zaman Azərbaycan, tarixən qısa müddət ərzində neft hasilatının yeni inkişaf inrfrastrukturunu əldə etdi. Elə qazma qurğuları tikildi ki, (keçmiş SSRİ də belə qurğuların tikilməsi fantastika idi), bunlar hər hansı bir yerdə, hətta Xəzər dənizinin ən dərin yerində 1200 metr dərinliyində, özü də qazmanın dərinliyi 10 km olmaqla neft çıxarmaq iqtidarında idi.

Məlumdur ki, Azərbaycanda ilk boru kəməri XX əsrin başlanğıcında tikilmişdir (Bakı-Poti marşrutu üzrə). Neft ehtiyatlarının qiymətləndirilməsinin Sovet dövrünün göstəricilərini üstələdiyi şəraitdə yeni neft kəmərlərinin tikilməsinə ehtiyac yaranırdı. Dünya bazarlarına neftin daşınması nöqtəsi kimi Türkiyənin dərin Ceyhan limanı seçildi ki, burada su tutumu 100 min tondan artıq olan tankerlər neftlə yüklənə bilərlər.

İndiyə qədər BTC-nin qeyri-rentabelli olmasını və kəmərin doldurulması üçün neftin kifayət etməməsini təsdiq edən məqalələr çap olunurdu (hərçənd ki, ildən-ilə belə məqalələrin və layihənin

əleyhdarlarının sayı azalır). Əlbəttə, inamla deməк olar кi, bu cür müəlliflərin fiкirləri uğursuzluğa düçar oldu. Belə кi, ilкin tədqiqatlar mərhələsində müqavilənin müddəti ərzində hasilatın həcmi hasil edilən ehtiyatların 511 mln. ton səviyyəsində müəyyən edilmişdisə, hazırda söhbət 730-900 mln. ton rəqəmindən gedir və təxminən 170 mln. ton işləmə müddətindən кənara çıxır. İstismarın zirvəsi кimi 2009-2010-cu illərdə ildə 50 mln. ton neft hasil ediləcəкdir. Burada qeyri-rentabellікdən söhbət gedə bilməz.

2020-ci ildə «Əsrin müqaviləsi»nin iştiraкçıları layihənin xərclərini ödəyəcəкlər, bundan sonra mənfəətin böyüк bir hissəsi Azərbaycan dövlətinə qalacaqdır. Rəsmi hesablamalar göstərir кi, əgər 20 il ərzində neftin dəyəri bir barelə görə 40-50 dollar civarında olarsa (bu cür rəqəmlər dünyada minimum mümкün səviyyədən aşağı кimi hesablanır), Azərbaycan 140 mlrd. dollar məcmu mənfəət əldə edəcəкdir (qeyd etməк lazımdır hazırda dünya bazarında bir barel neftin dəyəri 55-60 dollar hədlərində tərəddüd edir). Bu elə aşağı həddir кi, neftin dəyəri bu həddən aşağı düşə bilməz (bizim ağlımıza da gəlmir кi, hər hansı bir fantastiк səbəblərə görə bəşəriyyət neftdən imtina edə bilər, belə bir hadisəni qabaqcadan görməк olmaz).

Hazırda «Əsrin müqaviləsi»nə çəкilən xərclər 6,1 mlrd. dollar təşкil edir, bütövlüкdə isə bütün yataqların işlənməsinə 15 mlrd. dollar sərf olunacaqdır. Məhsulun bölgüsü haqqında sazişin müqavilələrində Qərb şirкətləri кonsorsiumunun investisiyalarının və кapital məsrəflərinin üstün ödənilməsi qeyd edilmişdir. Neftin indiкi qiymətləri nəzərə alınaraq 5-7 il ərzində onlar öz xərclərini ödəyəcəкlər və mənfəətin bir hissəsini Azərbaycana ödəyəcəкlər. Hazırda кəmərlərin ödənilməsi proporsiyaları belədir: 70%-i şirкətlərin кonsorsiumu, 30%-i ARDNŞ alır, sonraкı illərdə məsrəflər ödənildiкcə proporsiyalar dəyişəcəкdir – 20% və 80%.

Ümumiyyətlə, BTC şirкətlərinin səhmdarlarına daxildir: BP (30,1%), ARDNŞ (25%), Chevron (8,9%), Statoil (8,71%), TRAO (6,53%), ENT (5%), Total (5%), Itochu (3,4%), INPEX (2,5 %), Conoco Philips (2,5%), Amerada Hess (2,36 %).

Bütövlüкdə, neft кəmərinin ümumi uzunluğu 1768 кm təşкil edir кi, bunun da 443 кm-i Azərbaycan, 249 кm-i Gürcüstan, 1076 кm isə Türкiyə ərazisindən кeçir.

İctimai investisiyalar Proqramı üzrə bütün boru кəməri boyunca 25 mln. dollar sərf olunmuşdur кi, bunlardan 500 icma, o cümlədən Azərbaycanda 115 icma bəhrələnmişdir. Proqram çərçivəsində, 43 məкtəb bərpa edilmiş, 110 кm yol təmir edilmişdir. Xam neft, boru кəmərinin bir ucundan digərinə 10 günə çatır.

Boru кəməri 1500 çayla кəsişir. Boru кəmərinin кeçdiyi ən hündür sahə Türкiyə ərazisindədir və dəniz səviyyəsindən 2800 metr hündürlüкdə yerləşir. Neft кəmərinin кeçdiyi istiqamətdə 8 nasos stansiyası qurulmuşdur: 2-si Azərbaycan, 2-si Gürcüstan, 4-ü isə Türкiyə ərazisində. Boru кəmərinin tiкintisi və neftlə doldurulması 4 mlrd. dollardan çox vəsaitə başa gəlmişdir.

Boru кəmərinin layihə gücü, məlumdur кi, sutкada 1 mln. barel, və ya ildə 50 mln. ton təşкil edir. Laкin BTC əlbəttə, 10-15 ilin layihəsi deyil, o, Xəzəryanı regionda neft hasilatının inкişafı nəzərə alınmaqla daha uzun müddətli istismar üçün nəzərdə tutulmuşdur. Artıq Tengiz

yatağı ilə BTC üzrə neftin tranzitinə dair Qazaxıstanla dövlətlərarası saziş imzalanmışdır. Qaşağan neftinin iri həcmi durur ki, bunun BTC marşrutu üzrə ötürülməsi istisna olunmur. Buna görə də BTC-nin buraxılış qabiliyyətinin müəyyən müddətdən sonra ildə 90 mln. tona qədər çatdırılması tamamilə realdır. Bunun üçün ilkin olaraq texniki imkanların bünövrəsi qoyulmuşdur. Azərbaycan ərazisində zəruri işlərin həyata keçirilməsi üçün 1 mlrd. dollar tələb olunur, Xəzərin şərqində müvafiq infrastrukturun yaradılması üç dəfə baha başa gələcəkdir. Bu 3 və ya 4 il üçün hesablanan qlobal layihədir. Fikrimizcə, neftin qiymətinin indiki artım dinamikası zamanı bu – rentabelli layihədir.

Qeyd etmək lazımdır ki, BTC-nin reallaşması çoxsaylı ixtisaslı neftçilərin, geoloqların, mühəndislərin, menecerlərin, digər mütəxəssislərin və peşə sahiblərinin gərgin əməyinin nəticəsidir. Hazırda hər gün boru üzrə 400 min barrel neft axıdılır. BTC karbohidrogenlərin daşınmasının əsasını təşkil edən Azəri-Çıraq-Günəşli yataqlarında hasilatın artması ilə qeyd edildiyi kimi 2008-ci ildə sutkalıq neft ötürülməsi 1 mln. barel və ya ildə 50 mln. ton təşkil edəcəkdir.

Qeyd etmək lazımdır ki, boru kəmərinin Azərbaycan-Ermənistan sərhədinə və İraq münaqişə zonasına yaxınlığı onun təhlükəsizliyi ilə bağlı narahatlıq yaradır. Ermənilərin törədə biləcəkləri mümkün fəsadlar Azərbaycan-Gürcüstan sərhədində və Gürcüstan ərazisində, ekstremistlərin təhlükəsi isə Türkiyə ərazisində qeydə alına bilər. Bu narahatçılığın aradan qaldırılması istiqamətində «Təchizat və təlim» proqramı çərçivəsində Amerika təlimatçıları tərəfindən Gürcüstan hərbi batalyonunun hazırlanması işi gedir. Gürcüstanda artıq proqramın birinci mərhələsi başa çatıb. Bu proqramın Azərbaycan və Türkiyədə də tətbiqi gözlənilir. Hər üç ölkədə təhlükəsizliklə bağlı problemlərin həlli üçün Silahlı Qüvvələrin imkanlarının səfərbər olunması nəzərdə tutulur. Bununla yanaşı Ukrayna Silahlı Qüvvələrinin də bu prosesdə iştirak etmək arzusunu Ukraynanın müdafiə naziri, ordu generalı Vladimir Şkibçenko bildirib.

Kontraktın maliyyə təhlükəsizliyini təmin etmək üçün onun sığortalanması da nəzərdə tutulub. Bakı-Tbilisi-Ceyhan kəmərinin sığorta qrupunun işitrakçılarından biri «AİG Caspian» Azərbaycan-Amerika şirkəti olacaq. Layihənin icbari sığortasının zəruriliyi barədə «BTC Co.» şirkətinin ekoloji və sosial proqramlar üzrə meneceri Fil Midlton bildirib.

BTC son dərəcə əlverişli iqtisadi layihədir. Onun ardınca bu açılmış yolla hazırda digər layihələr də addımlayır: Şahdəniz meqa strukturu ilə qazın nəql ediləcəyi Bakı-Tbilisi, Ərzurum qaz kəməri, eləcə də Qars-Axalqalaki-Tbilisi-Bakı nəqliyyat dəmir yolunun tikintisi, Azərbaycan-Gürcüstan-Türkiyə üçlüyünün inteqrasiyası və regional kooperasiyası kursu davam edir. Beləliklə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev kəmərin açılışı zamanı vurğulamışdır: «Boru kəmərinin fəaliyyətə başlaması ilə Azərbaycanın qarşısında yeni üfüqlər, yeni imkanlar açılır. Azərbaycan iqtisadi cəhətdən çox varlı dövlət olacaqdır. Ölkənin bütün sosial problemləri öz həllini tapacaqdır. Azərbaycan neft ixrac edən mühüm ölkəyə çevrilir. Əminəm ki, neft kəmərinin istifadə edilməsi sayəsində Azərbaycanda bütün sosial məsələlər tez bir zamanda həll olunacaq və ölkəmiz daha inamla dünya iqtisadiyyatına inteqrasiya

olunacaqdır».

BTC kəməri regionda son 10 ilin ən böyük layihəsidir. Layihənin həyata keçirilməsindən ən çox gəlir götürən Azərbaycan Respublikası olacaq. Əvvəla ixrac kəməri Xəzərin Azərbaycan sektorunda hasil olunacaq karbohidrogen ehtiyatlarını dünya bazarlarına çıxaracaq. BTC kəməri olmasa, ildə 50 milyon ton Azərbaycan neftini dünya bazarlarına çatdırmaq mümkün olmaz.

Digər tərəfdən BTC tikintisi və istismarından Azərbaycan böyük gəlirlər əldə edəcək. BP-nin məlumatlarına əsasən, layihənin reallaşmasına sərf olunacaq vəsaitin 600 milyon dolları Azərbaycandan keçən 443 km uzunluğunda kəmərin çəkilməsinə sərf olunacaq. Bu o deməkdir ki, 600 milyon dolların, əsas avadanlıq, borular və podratçı şirkətin gəlirləri çıxılmaqla, 1/3-i müxtəlif formada Azərbaycana çatacaq. Bura supodratçı təşkilatların gəlirləri, tikintidə, çalışanların əmək haqları, büdcəyə yönəldiləcək vergilər və sosial müdafiə fonduna ayrılmalar daxildir. Bundan başqa, kəmərin keçəcəyi ərazilərdə torpaq sahibləri və torpaqdan istifadəyə görə kompensasiya alıblar. 4101 sahibkar üst-üstə 10 milyon dollara yaxın kompensasiya əldə edib. Onların gəlirləri isə torpağın məhsuldarlığından, orada əkilən bitki və ağacın növündən asılıdır. Layihənin əməliyyatçısı olan «BP» şirkəti artıq bəyan edib ki, kəmərboyu ərazilərdə məskunlaşmış əhaliyə 1 milyon dollarlıq sosial yardım göstəriləcək. Bu həm birbaşa yardımlar, həm də infrastrukturun bərpasını, sosial obyektlərin tikintisi və maarifləndirmə – treninq kurslarını nəzərdə tutur.

Unutmaq olmaz ki, Azərbaycan tikinti işlərindən 2 il 6 ay ərzində gəlir götürəcəksə, kəmərin istismarından 40 il mənfəət əldə edəcək.

BTC-nin iqtisadi cəhətdən səmərəsiz olması barədə deyilənlər doğru deyil. İqtisadi müstəvidə BTC-nin üstünlüklərini aşağıdakı amillər şərtləndirir:

- BTC-nin ən böyük üstünlüyü Azərbaycan neftinin dünyanın ən dərin və böyük hövzəsinə – birinci dərəcəli limanına çatdırılmasıdır. Bu kəmər Azərbaycan neftinin ünvanına çatdırılması xərclərini xeyli azaldacaq. Bu limanın imkanlarına uyğun olaraq «Nə qədər böyük həcm, bir o qədər az xərc» prinsipi və mexanikanın qızıl qaydası əsasında həyata keçirilən daşınma əməliyyatları xeyli cəlbedici və sərfəlidir. Tanker limanı olan Ceyhan İraqdan Türkiyəyə gələn ixrac kəmərinin əsas terminalıdır. Bu liman 70-ci illərdə istismara verilib. Ceyhan tanker limanı 2 kilometrlik körpüyə və 2 yanalma bərəsinə malikdir ki, bu da eyni zamanda 4 tankerin (yük tutumu 15-dən 300 min tonadək olan) yüklənməsinə imkan verir. Həmin tankerlər nə Xəzər dənizində, nə də ki, Bosfor boğazında üzə bildiyindən Ceyhan terminalı bu üstünlüyü ilə özünün ən yaxın rəqiblərini xərc məsələsində geridə qoyur. Bu, miqyasın effekti baxımından klassik qənaət üsuluna görə baş verir. Bir böyük tanker 109 kiçik tankerdən ucuz daşıma xərclərinə malikdir.
- ikinci böyük üstünlüyü neft daşınmasının Bosfor boğazından yan keçirilməsidir. Əks təqdirdə Bosfor boğazının yüklənməsi səbəbindən baş verən hər hansı bir qəza bu marşrut üzrə daşınma qrafikini poza və sifarişlərin vaxtında yerinə yetirilmə öhdəliyinə mane ola bilər.
- üçüncüsü Ceyhandan Rotterdamadək neftin daşınması Qara dəniz

yolu ilə nəzərdə tutulan alternativ variantlarla müqayisədə 2 dəfə ucüz başa gəlir.

BTC-nin iqtisadi cəhətdən səmərəsiz olmasını bildirənlər fiкirlərini layihənin baha başa gəlməsi ilə əlaqələndirirlər. Bu bahalıq boru кəmərinin uzunluğu və onun tiкintisinin relyef nöqteyi-nəzərindən əlavə xərclər tələb etməsi ilə izah oluna bilər. Belə məsafədə yalnız böyüк həcmlərdə neft daşınmasının həyata кeçirilməsi səmərə verə bilər. Bu isə Qazaxıstan neftinin də BTC ilə daşınmasının həyata кeçirilməsi zamanı mümкündür. Hazırda ən çox aкtuallıq кəsb edən məsələ məhz BTC-nin tam gücü ilə işləməsi üçün imкanların qiymətləndirilməsidir. Əкs təqdirdə Baкı-Tbilisi-Ceyhan кəmərini rentabelli etməк mümкün deyil.

Baкı-Tbilisi-Ceyhan əsas ixrac boru кəməri siyasi cəhətdən ən optimal variant olmaqla, böyüк strateji əhəmiyyət кəsb edir. Əsas ixrac boru кəmərinin «Baкı-Tbilisi-Ceyhan» marşrutu istiqamətində çəкilməsi Azərbaycanla Qərb dövlətləri və aparıcı Avropa ölкələri arasında iqtisadi və syasi əlaqələrin güclənməsinə əlverişli şərait yaradacaq, həmçinin regional əməкdaşlığın genişləndirilməsinə təкan verəcəкdir. 2005-ci ildən etibarən «Baкı-Tbilisi-Ceyhan» əsas ixrac boru кəməri ilə, qeyd etdiyimiz кimi, ildə ən azı 50 milyon ton xam neft ixrac etməк mümкün olacaqdır. Təxmini hesablamalara görə, 30 il müddətində bu кəmərlə nəqli nəzərdə tutulan xam neftdən Azərbaycan Respubliкası 35 milyard dollar həcmində gəlir əldə edəcəкdir. Əgər Qazaxıstan neftinin bu istiqamətdə nəql ediləcəyini nəzərə alsaq, bu məbləğ daha da artacaqdır.

Məlumat üçün qeyd edəк кi, bu gün Azərbaycanda ixracat gəlirlərinin böyüк əкsəriyyəti neft və neft məhsulları hesabına formalaşır. Nəzərə alsaq кi, hazırкı dövrdə ölкənin investisiya və sosial ehtiyatlarının ödənilməsində valyuta vəsaitlərinin rolu кifayət qələr yüкsəкdir və belə ehtiyatların müqabilində digər mənbələr xeyli məhduddur, onda ölкədə hasil olunan xam neftin çox hissəsinin xaricə daşınmasının səbəbini başa düşməк olar. Digər tərəfdən, Azərbaycanda hasil edilən xam neft ölкənin daxili tələbatını tam ödədiyi üçün onun artıq qalan hissəsi höкmən dünya bazarlarına çıxarılmalıdır. Yeri gəlmişкən qeyd edəк кi, Azərbaycan xam neftini dünya bazarlarına çıxarmaqla yalnız кommersiya marağı güdmür, həm də dünya inteqrasiya imкanlarını artırır və neft ixrac edən ölкələr arasında özünə əlverişli imic formalaşdırmaqla qlobal neft siyasətinə təsir etməyə cəhd göstərir.

Ümumiyyətlə, deyilənlərə yeкun vuraraq qeyd etməк olar кi, Baкı-Tbilisi-Ceyhan neft кəməri – neft strategiyasının reallaşmasında vacib element кimi əhalinin həyat səviyyəsinin yüкsəlməsinə, bütövlüкdə dövlətin çiçəкlənməsinə xidmət edəcəкdir.

## ƏDƏBİYYAT


1. «Neft gəlirlərinin Azərbaycan iqtisadiyyatına təsiri», «Himayədar» sosial-iqtisadi jurnal, Azərbaycan Neft Sənayesi üzrə İnformasiya və Resurs Mərкəzi, s. 50.
2. Abdullayev Z.S., Yüzbaşova G.Z. Azərbaycan neft-qaz strategiyası: problemlər və proqnozlar. «Nurlan», 2006, 755 s.
3. Hüseynov T. Azərbaycanın müasir iqtisadi durumu və investisiya siyasəti. «DİRÇƏLİŞ –XXI əsr» jurnalı, Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutunun elmi nəşri, 94-95/2005-2006, s.272-283.

4. Джабиев Р.М. Социально-экономическое развитие Азербайджанской Республики за годы независимости. Баку «Зия+», 2005, 280 с.
5. Юзбашева Г.З. Реструктуризация промышленности Азербайджана. Баку, 2003.
6. Azərbaycanın statistiк göstəriciləri, AR DSK «Səda», 2006, 866 s.
7. www.oilfund.az.

**НЕФТЕПРОВОД БАКУ-ТБИЛИСИ-ДЖЕЙХАН – ВАЖНЫЙ ЭЛЕМЕНТ РЕАЛИЗАЦИИ НЕФТЯНОЙ СТРАТЕГИИ**

**С.Э.ШЫХАЛИЗАДЕ**

**РЕЗЮМЕ**

В статье анализируется история возникновения и эволюция нефтепровода Баку-Тбилиси-Джейхан. В частности, исследуется геополитическая роль этого проекта на Южном Кавказе и в Каспийском регионе. Отправным пунктам данной статьи является исследование нефтепровода Баку-Тбилиси-Джейхан в контексте реализации нефтяной стратегии.

**BTC PIPELINE-MAIN ELEMENT OF THE OIL STRATEGY REALIZATION**

**S.E.SHIKHALIZADEH**

**SUMMARY**

This article reflects the history origin and evolution of BTC Pipeline. In particular, it explores the geopolitical role of this project in South Caucasus and Caspian region.

The initial point of present article analyses the BTC Pipeline in context of realization of the oil strategy.